**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 40 nömrəli qərarı ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında Nümunəvi Əsasnamə"də dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 29 may tarixli 1303-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 iyul tarixli 576 nömrəli Fərmanının 1.1.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərar**a alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 40 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N3, maddə 196; 2001, N10, maddə 663; 2003, N6, maddə 342; 2005, N4, maddə 386; 2006, N5, maddə 463, N9, maddə 822; 2008, N2, maddə 125, N8, maddə 782; 2011, N5, maddə 455; 2012, N5, maddə 487, N7, maddə 776, N9, maddə 921; 2013, N6, maddə 575, N8, maddə 1021, N11, maddə 1462; 2015, N4, maddələr 463, 467; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 fevral tarixli 44 nömrəli qərarı) ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında Nümunəvi Əsasnamə"nin 3.2-ci bəndinin 3-cü yarımbəndindən, 4.6-cı bəndinin ikinci abzasından, 4.8-ci bəndinin ikinci cümləsindən və 7.2-ci bəndindən "təminatlı" sözü çıxarılsın.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 15 aprel 2016-cı il
155